*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2023, №2* *ISSN: 2664-5432*
*Səhifə: 57-61*
*http://doi.org/10.59849/2664-5432.2023.2.57*

**İLHAMİ CƏFƏRSOY[*]**

# SİCİLİYANIN TƏNDİR ADLI ŞAİRİ

## XÜLASƏ

Siciliya adasının arxaik mədəniyyətini Ön Asiyadan Aralıq dənizi vadisinə köçən etnoslar yaratmışdır. Həmin Asiya mənşəli və iltisaqi dilli etnoslardan biri Təndir idi.

Təndir etnonimi Misir papirus mətnlərində, yunan, latın tarixçilərinin əsərlərində Tentir, Tendir, Dender formalarında yazıya alınmışdır. Təndir nəsillərinin saldıqları şəhərlər isə Tendera, Tindara, Dendera adlandırılır.

Bəzi tədqiqatçılara görə Təndir ari, bəzilərinə görə qeyri-ari etnosu olmuşdur. Məqalədə belə fikir elmi ictimaiyyətin müzakirəsinə çıxarılır ki, Təndir Nil çayı vadisinin və Aralıq dənizi hövzəsinin qədim mədəniyyətini yaradan prototürk etnoslarından biridir.

Siciliyanın görkəmli şairlərindən biri Təndir nəslindən çıxmışdır. Təndir etnonimi təndirə, təndirin timsalında çörəyə, Tanrının verdiyi urzaya sitayişlə bağlıdır.

**Açar sözlər**: *Təndir, məbəd, monastır, sikullar, sakanlar, cadugər, şair.*

Siciliya adasının tarixən çoxlu adları olmuşdur. Avraam Norov 1828-ci ildə nəşr etdirdiyi "Siciliyaya səyahət" kitabında yazır ki, adanın ona görə çoxlu adları olmuşdur ki, adanı tutan qalib xalqlar məğlubları qovur, ora öz adını verirdi [Норов: 1828, s.13, 14].

Sicililiyalılar "Albaniya tarixi"ndə *Sikilaçik* adlandırılır. Göstərilir ki, onlar Yafəs xalqlarından biridir. Aralıq dənizindəki adalara Ön Asiyadan köçüb getmişlər [История Агван: 1861, s.287].

Yəhudi və xristian salnamələrində *Yapet, İapet* adlandırılan Yafəs həm də türklərin əcdadlarından biridir. Fəzlullah Rəşidəddin yazır ki, Yafəs Nuhun böyük oğludur. O, köçəri idi. Yaylağı Türküstanın dağları, qışlağı Türküstanın aran torpaqları idi. Türklər ona *Olcay* deyirdilər. *Olcay* türk dillərində *tale* deməkdir [Rəşidəddin: 1992, s.10]. Buna uyğun olaraq Azərbaycan dilində *olacaq* sözü vardır: Olacağa, yəni qeybdən gələn fəlakətə çarə yoxdur.

Yafəsin türklərin əcdadı olduğunu Əbülqazi Bahadur xan da bildirir. O, türkmən qocalarının dilindən qələmə aldığı "Şəcəreyi-tərakimə" əsərində yazır ki, Yafəs Nuhun üç oğlundan biridir və türkmənlərin əcdadıdır [Şəcəreyi-tərakimə: 2002, s.50].

Musa Xorenliyə görə, Yafəs həm də h`ayların ulu babasıdır və Nuh övladıdır [Шопен: 1866, s.40; Хоренский: 1893, s.22]. H`Aylar VI əsrə qədər, yəni ariləşənə qədər iltisaqi dilli idilər. Türk və İver dillərinə qohum olan bir dildə danışırdılar [Марр: 1903, s. giriş; Патканов: 1883, s.199-265; Cəfərsoy: 2020, s.3-63].

Yafəs xalqları, o cümlədən Siciliya adasının prototürk etnosları Fələstində, Aralıq dənizi vadisində samilərlə iqtisadi, siyasi, mədəni əlaqələrdə oldular, dilləri onların dilinin təsiri ilə xeyli dəyişdi. Akademik Marra və Rozaliya Şora görə Yafəs nəsilləri Aralıq dənizi mədəniyyətinin yaradıcılarıdır. Onlar türk mənşəlidir, ancaq dilləri hami və sami dillərinin təsirilə xeyli dəyişmişdir [Марр: 1899, s.XI-XII; Марр: 1920, s.38, 42, 43; Шор: 1931, s.223, 227].

Siciliyalılar da türk idilər. Onların bir hissəsi Fələstində və Aralıq dənizi adalarında samiləşmiş, daha sonra ariləşmiş [Грець, I: 1906, s.195; Норов: 1854, s.403], iki oymağı isə Tür-

[*] AMEA Nəsimi adına Dilçilik İnstitutu, Qədim dillər və mədəniyyətlər şöbəsinin müdiri, filologiyaelmləri doktoru, *cfrsoy@mail.ru*

küstanda və Macarıstanda son zamanlara qədər öz dilini, etnik kimliyini qoruyub saxlaya bilmişdir.

Murad Adcı yazır ki, Macarıstanda Sekeli adlı xalq yaşayırdı. Onlar özlərini türklərə qohum sayır və türk dilində danışırdılar [Аджи: 1998, s.111, 85]. Onların Fələstindəki və Siciliyadakı soydaşları da özlərini Sekeli, Sikelaq adlandırır və samiləşənə, daha sonra ariləşənə qədər türk dillərinin arxaik bir ləhcəsində danışırdılar.

Sekelli etnonimi aramey mətnlərində olduğu kimi, orta yüzil müsəlman tarixçilərinin əsərlərində *Sekelli, Sikullu* adlanır. "Hüdud əl-aləm"də göstərilir ki, sikullar Türküstanda çigillər arasında yaşayırlar. V.F.Minorski yazır ki, onların Qaraxanlıların zamanında *Sikul* adlı şəhəri var idi. Həmin şəhər İssik kul gölünün sahilində salınmışdı [Пилинчук: 2016, s.65].

Siciliyada yurd salan Sekele etnosunun Təndirdən başqa, Diodor adlı tarixçisi [Гуго: 1913, s.60-61] və *Kamenas* adlı şairi olmuşdur [Норов: 1828, s.40]. O həmin Kamenasdır ki, eradan əvvəl XIV əsrdə baş verən Troya müharibəsini qələmə almışdır və özünü troyalılara qohum sayırdı.

Siciliyalı Diodorun və şair Təndirin əsərləri latın dilində yazılsa da, orada prototürk etnoqrafik leksikasının çoxlu nümunələri qorunub qalmışdır. Məsələn, Makedoniya əsgərlərinin geyindikləri keçədən hazırlanmış hərbi geyimə *yapança* deyilir [Курция: 1750, s.130]. "İqor polku haqqında dastan"da da qıpçaqların və peçeneqlərin geyindikləri keçədən paltar *yapança* adlanır. Buna uyğun olaraq Azərbaycan dilində *yapıncı* sözü vardır.

Siciliyalı Diodor yazır ki, Asiyadan Aralıq dənizi adalarına köçən xalqlar öz kahinlərinə *tolmaç* deyirlər. Bu söz indi Azərbaycan dilində *dilmanc* şəklində işlənir və tərcüməçilərə deyilir. Kahinlərə ona görə *dilmac* deyilirdi ki, onlar Tanrının sözlərini tərcümə edib insanlara çatdırırdılar.

Xüsusilə maraqlıdır ki, Siciliyalı Təndirin şeirlərində, Vergilinin "Eneida" poemasında Siciliyanın bir mahalı *Guneş* adlanır [Норов: 1828, s.18].

Günəş çox qədim türk etnoslarından biridir. Onların ayrı-ayrı oymaqları özünü *Günəşli, Kuyaşlı* adlandırır - Volqa çayı boyunda, Azərbaycanda və Anadoluda yaşayırdılar. [Руденко: 1955, s.315; Cəfərsoy: 2010, s.63-65]. Günəş kultu ilə bağlı Qarabağda Dədə Günəş piri var idi. Günəş ayininə gələnlər Tuğ kəndi yaxınlığındakı Dədə Günəş təpəsinə qalxar, orada doğan günəşə dualar oxuyardılar.

Siciliyalı şairin adı və ya nəsil adı müxtəlif mənbələrdə *Tentir, Tindar, Tandar, Dender* variantlarında yazıya alınmışdır. Eyni zamanda Təndir nəslinin saldıqları şəhərlər *Tindara, Dendera, Tandaria* adlandırılır [Курция: 1750, s.40; Масперо: 1911, s.19..; Bakuvi: 1992, s.52]. Əslində isə, bunlar şairin soyadının ilkin forması deyildir. Etnonimin ilkin variantı ***Tentir*** olmuşdur [Викентьев: 1917, s.251; Авдиев: 1948, s.21]. Bu, Azərbaycan dilindəki *təndir* sözünə daha yaxındır.

Belə bir suala cavab axtarmalı oluruq: - Nəyə görə insanlar təndiri bu qədər müqəddəs tutmuş, yaşadıqları ölkələrdə Təndir məbədləri, səcdəgahları inşa etmişlər? Ona görə ki təndir ruzi, bərəkət rəmzi idi. Təndırdə çörək bişirilirdi.

Özünü *Təndır* adlandıran etnoslar Ön Asiyadan Aralıq dənizi adalarına, Volqa çayı sahillərindən Misirə qədər böyük ərazılərə yayılmışlar. *Təndir* kultu daha çox Nil çayı vadisində yayılmışdı. Bu da onunla bağlıdır ki, Misirdə Nil çayı daşır, boz səhraları münbit qara torpaqlara döndərirdi. Sular çəkiləndən sonra insanlar ucsuz-bucaqsız zəmilərə arpa, buğda səpirdilər. Az əziyyətlə yeri şumlamadan bol məhsul alırdılar.

Biçin vaxtı gələndə sünbüllər biçilib xırmana tökülür, arpa, buğda sünbülləri qılçıqdan ayrılır, təpə-təpə yığılırdı. Biçinçilər təpələrin qarşısında yallı gedir, dəni kirkirədə üyüdür, məbədin qarşısında təndir mərasimi keçirirdilər. Bu mərasim orta əsrlərə qədər qalırdı.

Xüsusilə maraqlıdır ki, Asiya mənşəli Misir etnoslarının buğda təpələrinin qarşısında əl-ələ tutaraq oynadıqları rəqslər Yallı adlanırdı. Misir papirus mətnlərində o mərasimin adı ***Eallu*** formasında yazıya alınmışdır [Тураев: 1913, s.191].

Yallı məhsul bayramı rəqsi Elamın Şuşa vilayətində də var idi. Qədim Şuşa təqvimində biçin ayı və xırman mərasimi ***Yelelu*** adlanırdı [Храновский: 2010, s.142]. Yunan tarixçiləri Elamın Şuşa şəhərini ***Suz,*** Şuşa vilayətini ***Suziana*** adlandırırlar.

Türkiyənin Kayseri şəhəri yaxınlığındakı Kül təpədən eradan əvvəl II minilliyə aid mixi-yazılı mətnlər tapılmışdır. Həmin mətnlərdə məhsul bayramı günü oynanılan rəqslər da ***Elali*** adlanır [Янковский: 1968, s.101].

Əbdürrəşid Bakuvi yazır: “Tendira Nil çayının qərb sahilində gözəl şəhərcikdir. Çoxlu axar suları, buğda zəmiləri, xurma bağları var. Şəhərcikdə qədim məbəd də vardır. O məbəd sirlərlə doludur və caduludur” [Bakuvi: 1992, s.52].

Təndir kultu Xəzər dənizinin şərqindən Cənubi Avropaya qədər 10 min km-lərlə uzanan yerlərə yayılmışdır. Türkoloji tədqiqat üçün maraqlıdır ki, o kultun adı ***tendir, dender, tandur, tindar*** formalarında həm türk, həm də yunan, latın, qədim yevrey dillərində vardır [Эдельман, Климов: 1991, s.125, 126, 127, 128]. Onda belə bir sual qarşıya çıxır: - ***Təndir*** kimin sözüdür? O söz ki eradan öncə V-IV minilliklərdə Avroasiyada və Avropanın cənub-şərqində var idi.

Doqquzuncu Sparta çarının adı ***Tindar***, Tindarın qızının adı ***Tindara*** idi [Роллен: 1751, s.273]. Vergilinin “Eneida” poemasındakı Menelayın arvadı Yelenin qız ikən adı ***Tindara***, yəni Tindarın qızı olmuşdur [Энеида: 1933, s.376; Энеида: 1971, s.414].

Bundan çox qabaq, eradan öncə XIV əsrdə yaşamış Troya hökmdarı Priamın qızının adı *Tindar* olmuşdur [Энеида: 1971, s.414]. Avropa və rus tarixçiləri çar Piramın adını *Priam* kimi yazmaqla uzun illər türkoloqların diqqətini yayındırdılar.

Tindaralar ərə gedəndə ***Gelen,*** yəni gəlin titulu alırdılar. Parisin falçı Geleni qaçırması ilə Troya müharibəsi başlayır [Вагпер: 1901, s.157]. 1920-ci ildən sonra yazılan əsərlərdə Gelenin adı *Yelen* və *Helen* formalarında təqdim olunur. Guya Troya müharibəsi Parisin Yeleni qaçırması ilə başlayır.

İddia edilir ki, gəlinə *gelen,* qalxana *kalkan,* sobaya *ocaq* deyən elladalılar elə yunanlardır. Avrofillərin düşüncəsinə görə, Aralıq dənizi hövzəsinin Asiya mənşəli etnosları yox, yunanlar Ellada mədəniyyətinin yaradıcılarıdır. Əgər Ellada dövrünün İoniya, Axey, Attika ittifaqı etnosları 5-6 dildə danışırdılarsa, o mədəniyyətə yalnız yunanlar varislik iddialarını irəli sürə bilməzlər.

Əgər Ellada etnoslarının çoxu təndirə *tendir,* dəmir əridilən sobalara *ocaq,* qalxana *kalkan,* yapıncıya *yapança*, kahinə *dilmac,* öldürməyə *alpis* deyirdilərsə [Varron: 2020, s.3, 16, 21, 96; История греческих происшествий: 1824, s.139, 234], o çoxluq avropalıların yox, bizim əcdadlarımızdır.

Əgər Roma dövrü şairlərinin, o cümlədən Təndirin şeirlərində çəmənliyə *çemen,* əkilən yerə *aker*, vələ val, saxsı qaba *kap,* xalq yığıncağına *kur*, dona, köynəyə *tunika,* qapmağa *qap* deyilirdisə [Varron: 2020, s.21, 17, 96, 97], Elladanın yunanlara, İtaliyanın latınlara qədərki mədəniyyətinin yaradıcıları prototürklərdir.

Aleksey Nakkoya, Vilhelm Vaqnerə, Vikentyevə görə Ellada etnoslarının bir hissəsi Misirdən, bir hissəsi Asiyadan gəlmədirsə [Накко: 1873, s.67; Вагнер: 1901, s.30; Викентьев: 1917, s.79], onların yunanlara nə aidiyyatı var?

Suriyanın xristian və Fələstinin yəhudi salnaməçilərinə görə, iranlılarla farslar kimi ellinlərlə yunanlar eyni mənşəli xalqlar deyildir. Onlara istinadən "Albaniya tarixi"nin müəllifi yazır ki, ellinlər başqa, yunanlar tamamilə başqa xalqlardır [История Агван: 1861, s.2].

Siciliyanın qədim mədəniyyətinin bünövrəsini Ön Asiyazdan Misirə və Aralıq dənizi hövzəsinə köçən nəsillər yaratmışlar. Həmin nəsillərdən biri Təndir idi. Şair Təndir Siciliyada yurd salan Təndir nəslindən çıxmışdır.

*Siciliya* adanın samiləşmiş adıdır. Adanın adının ilk forması *Sekeli* olmuşdur. Sekeli xalqının bir oymağı Macarıstanda macarlar, bir oymağı Türküstanda çigillər arasında yaşayır, türk dillərinin arxaik bir ləhcəsində danışırdı.

Misir papirus mətnlərindəki, qədim yevrey salnamələrindəki, yunan və latın şairlərinin əsərlərindəki Təndir etnonimləri prototürk mənşəli olub, təndirə, təndirin timsalında çörəyə sitayişlə bağlıdır.

## ƏDƏBİYYAT


1. Bakuvi Əbdürrəşid. Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri. Bakı, "Şur" nəşriyyatı, 1992.
2. İlhami Cəfərsoy. H`Ayların və Armenlərin mənşəyi. Bakı, "Avropa" nəşriyyatı, 2020.
3. İlhami Cəfərsoy. Türk dillərində teonim və etnonimlər. Bakı, 2010.
4. Mark Terenti Varron. Latın dili haqqında. c. I, Bakı, Elm və təhsil, 2020.
5. Rəşidəddin Fəzlullah. Oğuznamə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992.
6. Şəcəreyi-tərakimə. Bakı, Ensiklopediya nəşriyyat-poliqrafiya birliyi, 2002.
7. Авдиев В.И. Военная история древнего Египта. Москва, 1948.
8. Авраам Норов. Путешествие по Сицилии. т. 1, Санкт-Петербург, 1828.
9. Алексей Накко. Старая Бессарабия. ч. I. Скифский период. Одесса, 1873.
10. Викентьев В.М. Древнеегипетская повесть о двух остроумных братьях. Москва, 1917.
11. Вильгельм Вагнер. Эллада. Санкт-Петербург, 1901.
12. Винклер Гуго. Вавилонская культура. Москва, 1913.
13. Генрих Грець. История евреев, т. 1, Одесса, 1906.
14. История Агван Моисея Каганкатваци. Санкт-Петербург, 1861.
15. История Армении Моисея Хоренского. Москва, 1893.
16. История греческих происшествий. Москва, 1824.
17. Квинта Курция. История о Александре Великом, т. 1, Санкт-Петербург, 1750.
18. Марр Н.Я. Сборник притч Вардана. ч. 1. Санкт-Петербург, 1899.
19. Марр Н.Я. Яфетический Кавказ и третий этнический элемент в созидании средиземноморской культуры. Лейпциг. 1920
20. Масперо М. Древняя история народов Востока. Москва, 1911.
21. Мурад Аджи. Европа, тюрки и Великая Степь. Москва, изд-во «Мысль», 1998.
22. Пилинчук Ярослав. Тюркские племена Центральной Азии и Караханидский каганат. Тюркология, №4, Баку, 2016, с. 63-72.
23. Публий Марон Вергилий. Энеида. Буколики, Георгики. Москва, 1975.
24. Публий Марон Вергилий. Энеида. Москва – Ленинград, 1933.
25. Роллен. Древняя история. Санкт-Петербург, изд-во Российской Имперской Академии Наук, 1751.

**26.** Руденко С.И. Башкиры. Историко-этнографический очерк. Москва-Ленинград, 1955.
**27.** Тураев Б.А. История древнего Востока. Санкт-Петербург, 1913.
**28.** Храновский Б.А. Эламский календарь в XV-XIV столетиях до н.э. Схидный Світ, №2, Кiив, 2010, с. 132-146.
**29.** Шопен И.И. Новые данные о Кавказе и его древних обитателей. Санкт-Петербург, 1866.
**30.** Шор Розалия. К вопросу о яфетическо-турецком языковом смешении. Москва, Доклады Академии Наук СССР, №3, 1931, с. 223-244.
**31.** Эдельман Д.И, Климов Т.А. К истории Иранского обозначения печи (Тендира, тануря). Ирано-афразийские языковые контакты. Вып.2, Москва, Наука, 1991, с. 125-129.
**32.** Янковский Н.В. Клинописные тексты из Кюл тепе в собраниях СССР. Москва, Наука, 1968.

**Ilhami JAFARSOY**

**THE SICILIAN POET NAMED TENDIR**

**SUMMARY**

The archaic culture of the Sicilian Island was formed by the ethnic groups migrated from Western Asia to the Mediterranean Basin. One of these ethnic groups of Asian origin that had an agglutinative language was Tendir.

The ethnonim Tendir was attested in the forms Tentir, Tendir, Dender in the Egyptian papyrus texts, as well as in the works of Greek and Latin historians. And the cities that were built by the descendants of Tendir were called Tendera, Tindara, Dendera.

According to some researchers Tendir was an ethnic group of Aryan origin, while the others considered it to be of non-Aryan ethnic group. In the article, such an idea is presented to the scientific society that Tendir is one of the Proto-Turkic ethnic groups that created the ancient culture of the Nile Basin and the Mediterranean Basin.

One of the prominent poets of Sicily was a descendant of the Tendir ethnic group. The ethnonym Tendir is connected with tendir ‘tandoor, oven’, with bread as related to tandoor, and with daily bread that was given by God.

**Keywords:** *Tendir, temple, monastery, the Sikuls, the Sakans, wizard, poet.*

**Ильхами ДЖАФАРСОЙ**

**СИЦИЛИЙСКИЙ ПОЭТ ПО ИМЕНИ ТАНДИР**

**РЕЗЮМЕ**

Архаическую культуру острова Сицилия создали этносы переселившиеся в долины Средиземного моря из передной Азии. Один из этносов азиатского происхождения, говорящий на агглютинативном языке, назывался Тандир.

Этноним Тандир в египетских папирусных текстах, в произведениях греческих и латинских историков упоминается как Тентир, Тендир, Дендер. Города основанные поколениями Тандира именуются Тендера, Тиндара, Дендера.

По одним исследованиям Тандир был арийским, по другим неарийским этносом. В статье на обсуждение научной общественности выносится мысль о принадлежности Тандира к прото-тюркским этносам создавшим древнюю культуру долины Нила и бассейна Средиземного моря.

Один из видных поэтов Сицилии происходит из рода Тандир. Этноним Тандир связан поклонением известному нам Тандиру, исходя из этого хлебу, благам дарованным богом.

**Ключевые слова:** *Тандир, храм, монастырь, сикулы, саканы, колдун, поэт.*